İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
Ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: _____

Oxu tarixi: _____

Ürək ver: ♡ ♡ ♡ ♡ ♡

MƏN SƏNİ SEVƏNDƏ

NƏRİMAN HƏSƏNZADƏ

parlaq
İMZALAR

Baş redaktor:	Amin ORUC
Korrektor:	Turac ELDARQIZI
Tərtibatçı:	Zülfi XƏLİLOV
Cildin illüstrasiyası:	Büşra KAYGIN GAFAROV
Cildin dizaynı:	Fariz EYVAZLI

Nəriman Həsənzadə
MƏN SƏNİ SEVƏNDƏ

Bakı, “Parlaq İmzalar” Nəşriyyatı – 2026, 200 səh.

© Nəriman Həsənzadə / 2026
© Parlaq İmzalar MMC / 2026
Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri və yayımlanması qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 164
Şeirə sarı | 2



www.parlaqimzalar.az
info@parlaqimzalar.az
/parlaqimzalar
0559697259 / 0559897259

Mətbəə: “AVE PRİNT” MMC
OKTYABR / 2026

Nəriman Həsənzadə 18 fevral 1931-ci ildə Qazax (indiki Ağstafa) rayonunun Poylu qəsəbəsində anadan olub. İbtidai və orta təhsilini öz doğma rayonunda alıb. 1949-cu ildə H. Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsinə daxil olub. 1953-cü ildə həmin institutu bitirib. Moskvadakı ikiillik ədəbiyyat kursunu bitirdikdən sonra M. Qorki adına Ədəbiyyat İnstitutuna daxil olaraq beş il orada təhsil alıb.

Nəriman Həsənzadə bədii yaradıcılığa 1953-cü ildə "Azərbaycan gəncləri" qəzetində dərc etdirdiyi şeirlə başlayıb. "Yadıma düşürsən", "Qaraca çobanın şikayəti", "Nəriman", "Zümrüd quşu", "Mənim sevdam – ehtirasım", "Kimin sualı var?", "Sizdən ayrılmadım", "Poylu – beşiyim mənim" və başqa kitabları oxucular və ədəbi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanıb. "Bütün Şərq bilsin", "Atabəylər", "Pompeyin Qafqaza yürüşü" kimi pyesləri Azərbaycan teatrlarının səhnəsində uğurla tamaşaya qoyulub. O, bir çox ədəbiyyat nümunələrini, o cümlədən Maqsud Şeyxzadənin "Daşkəndnamə" poemasını, A. Nekrasovun, T. Şevçenkonun, İ. Frankonun, A. Puşkinin, İ. Çavçavadzenin əsərlərindən nümunələri dilimizə çevirib.

Nəriman Həsənzadə 1 avqust 2026-cı ildə Bakı şəhərində vəfat edib.

Deyirlər, tanış ol...

Elə dayanırsan, elə baxırsan,
elə bil qarşında quru bir daşam.
İpək saçlarını öpüb oxşayan
elə bil hardasa mən olmamışam.

Səni dostlarımla, tanışlarımla,
mən tanış edərdim nə vaxtsa bir-bir.
İndi özgələri yad ehtiramla
deyirlər tanış ol... Nə qəribədir?

Yuxuda görərdin nə vaxtsa hər dəm,
yolumu gözlərdin yollardan uzaq.
Mən sənin yuxundan çıxıb gəlmişəm,
bu da bir yuxudu, gəl tanış olaq.

Qoluna girərdim... bu yadındadı,
gedərdik... yolumuz, arzumuz şərik.
Qolum qollarıyın lap yanındadı,
toxunsa, biz indi üzr istəyərik.

Hayanda oldumsa səhər, ya axşam,
aradın sən məni, gördün sən məni.
İndi gözləriyin qabağındayam,
hayanda durum ki, görəsən məni?

Mən səni sevdim ki...

Mən səni sevəndə yaz havasıydı,
neyləyim, taleyin gözü tökülsün.
Həyatım əlində quş yuvasıydı,
quran özün oldun, uçurdan özün.

Mən səni sevdim ki, yoldaş olasan,
həyatın ən ağır, dar yollarında.
Demədim, axırda bir daş olasan,
qədim qəbiristanda, yol kənarında.

Mən səni sevdim ki, yüyür, qaç, oyna,
yenə seçilməsin ətrin bahardan.
Demədim təzədən gizlənpaç oyna,
axşam yuxuma gir, səhər qaç ordan.

Yadıma nə düşür? – sənin ad günün,
biz qoca deyirdik, dünya təzəymiş.
İli yox, həyatda insan ömrünün
anı da tarixi bir hadisəymiş.

1986

Ürəyim ananı istəyir, qızım

Ürəyim ananı istəyir, qızım,
sən yaşa dünyada qəmsiz, kədərsiz.
Bir səs qulağıma döz deyir, qızım,
mən dözdüm, yaş ötdü məndən xəbərsiz.

Qaşlarım qaradı, saçlarım ağdı,
təbiət şəklimi çəkir yenidən.
Hamı bu dünyada qocalacaqdı,
amma tək qocalmaq dərd verir hərdən.

"Dağlar" deyə-deyə mən dağ aşmışam,
Hanı tale dostum, ürəkdən gülən?!
Dünyada yaşayıb dünyalaşmışam,
dünyayla düz gəlmir daha mən deyən.

Daddım acısını şirin həyatın,
Hələ bu acıdan doyan olmayıb.
Qızım, qardaşınla sən olmasaydın,
– deyərdim, dünyada anan olmayıb.

Daha yaş artdıqca səbrim azalır,
yaş yaşdı... neyləsən, yaş əyir, qızım.
Qadınsız – kişi də kimsəsiz qalır,
ürəyim ananı istəyir, qızım...

1999

Qadına məktub

Sizin qızınızla görüşürük biz,
gedirik gah yolla, gah kənar izlə.
Bunu mən bilirəm, siz bilmirsiniz, –
o gəlir sizin öz icazənizlə.

Tələbə yoldaşı, rəfiqəsi var,
işi də çox olur, bəzən dərsi də.
Mənəm,
qızınızın, necə deyərlər, –
“tələbə yoldaşı”, “rəfiqəsi” də.

Mən başa düşürəm, siz anasınız,
ürəyə sığışmır adi həyəcan.
O, evə dönüncə nigaransınız,
evdə olanda da mənəm nigaran.

Bir ömrün mənzili uzun, ya qısa...
məhəbbət, doğmalıq –
hansı qədimdi?!
O sizin adicə qızınızdısa,
o mənim yeganə səadətimdi.

Siz də heyransınız, mən də bir qıza,
kimin qapısından o girməlidi.
Dünya elədi ki,
biri tapırsa,
biri... təbiidi, itirməlidi.

Duruluq rəmzidi sizin qızınız,
gözündən oxunur qəlbi, istəyi.
Sizin bu sevdada uduzmağınız,
sizin borcunuzdu, mənim qismətim.

Sizin adınıza hörmət, ehtiram,
qadın qarşısında baş əyib aləm.
Mən də baş əyirəm, vidalaşıram, –
qızınız gələcək, mən getməliyəm.

1978

İnam

Saradan nə deyim, Nəmidə xanım,
Sizə inanmışdı İlahi kimi.
Bıçağın altına getdi, inanın, –
qadın paltarında fədai kimi.

Neyləyim, yox idi başqa əlacım,
sizə inanmışdım o dəmdə yalnız.
Adam tanımayıb yanılar, bacım,
siz onu tanıyıb yanılmışdınız.

Cərrah da yanıldı əlində bıçaq,
yalvardım, o çıxıb dinməz gedəndə.
Həkimlər bir dəfə yanılır ancaq,
– xalatı kəfənlə əvəz edəndə!

Bir şirin gülüşü uçdu üzündən,
həkimin "qəsdini" o hələ bilmir.
Gülməyi üstündə danlardım hərdən,
– indi yalvarıram: gül!
Gülə bilmir.

Bir dünya sevinci itib dünyanın,
bir evə qəm köçüb yurd salmaq üçün.
Dərdi dərdimizdi Sara ananın,
– bu dərd kifayətdi qocalmaq üçün.

Ay həkim

Ağzın bəd xəbərə açıldı sənin,
indi necə gülüm, necə, ay həkim.
Səsin ürəyimə sancıldı sənin,
həkimlik buydumu, səncə, ay həkim.

Sən güldün, yanında susub ağladım,
yenə ümidimi sənə bağladım.
Sağ ikən insana mən yas saxladım,
verdin əməyimi heçə, ay həkim.

Bir qapı bağladın, yüz qapı açdım,
qışın soyuğunda ölkə dolaşdım.
Həkimin əlindən həkimə qaçdım,
hanı diplomunun gücü, ay həkim.

Qəbula gələndə bivaxt düşmüşəm,
bu evdən-eşikdən uzaq düşmüşəm,
Mən sənin əlindən qaçaq düşmüşəm,
həkimləri seçə-seçə, ay həkim,
şəhər-şəhər, küçə-küçə, ay həkim.

1985

Ən xoşbəxt günlərim

Yanıma gəlmişdilər
yaxın qələm dostlarım.
Kefini soruşdular,
mənim könül dildarım.

Sən onlarla nə qədər
görüşmüsən Bakıda.
Süfrəyə xörək çəkib,
çay süzmüsən Bakıda.

Sənin sözün, söhbətin,
ərkyana zarafatın;
ən böyük mənasıymış
bu mənasız həyatın.

Ailəmiz, uşaqlar,
sadəcə çay süfrəmiz...
Xoşbəxtlik axtarmışıq
xoşbəxt ola-ola biz.

Bir nəğmə istəyirəm
indi, ya da bir gülüş.
Sənin səsin, nəfəsin
həyatın özü imiş.

Necə təkəm yanında,
güc eləyib dərd-ələm.
Sənin xəstəliyini
yarı bölə bilmirəm.

Qəfildən aç qapını,
dəyiş əynini, bəzən.
Ən xoşbəxt günlərimə
qaytar məni təzədən.

Torpağa büründü

İlahi!
Moskva nə soyuq idi,
əlcəyin içində donurdu əlim.
Yerin hərarəti yerdə yoxuydu,
dedim: Qoy kürkünü gedim gətirim.
Təzəcə almışıq, geyin əyninə,
Başını buladın:
Nə deyim sənə.
Qalxım... Moskvada kimdi tanıyan.
Bir az da danladın:
Baha alıbsan.

Ehtiyac görmüşdü, ona görəmi,
qarışıq düşmüşdü sevinci, qəmi.
Elə ki əyninə təzə geyirdi,
biz mübarək, özü hayıf deyirdi.
Amma nə geyinsə, onu tuturdu,
dediyi sözləri unutdururdu.

Torpağa büründü kürk əvəzinə,
yer qızındı onun od nəfəsinə.
Sən getdin, nə qaldı mənə, əzizim.
İnsandan savayı dünyada heç nə,
heç nə hayıf olmur, heç nə, əzizim!

Sara... Sara...

Ekranda müğənnilər –
italyalı ər-arvad,
bir mahnı oxuyurlar:
“Sara... Sara”
nəqərat!
Mənim məhəbbətimi
kimsə alıb qələmə,
car çəkibdi aləmə.

Müğənnilər oxuyur:
arvadı ərə: Sara!
əri arvada: Sara!
Mənim dediklərimdi,
özün sal yada, Sara.
Gör necə həyat verir
təkrar təkrara, Sara.

Deyilənlər düzüymüş,–
dilin tərcüməçisi
indi bildim gözüymüş.
Sarası yanındadı,
oxuyur ər arvada.
Mən evdə Sarasızam,
Sara – xəstəxanada.
Bir ümid var arada,
minnətdaram həyata.

Moskva, iyun 1985